**Azərbaycan Tibb Universtetinin**

**İctimai Səhiyyə fakultəsinin**

**10.12.2021-ci il tarixli**

**Fakultə Elmi Şurasının iclasının**

# Q Ə R A R I

**Protokol № 2**

***İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:***

I. 1. 2021/2022-ci tədris ilində qış imtahan sessiyasına hazırlığın vəziyyəti barədə fakültə dekanı, professor A.Ə.Ağayevin çıxışı qənaətbəxş hesab edilsin;

2. “İctimai səhiyyə”, “Tibb bacısı işi”, “Fizioterapiya və reabilitasiya işi” ixtisas proqramlarının təqdimatı və müzakirəsi qənaətbəxş hesab edilsin;

3. Fakültədaxili Təhsil keyfiyyətinin menecmenti (idarəetmə) Komissiyası yaradılsın;

4. A.Babayevanın təqdim etdiyi Fakültədaxili Təhsil keyfiyyətinin menecmenti (idarəetmə) Komissiyasının konsepsiyası (strukturu, məqsəd və vəzifələri) qəbul edilsin;

5. “Səhiyyə menecmenti” və “Klinik psixologiya” ixtisası üzrə təhsil alan mağistr tələbələrin elmi işlərinin mövzusu və elmi rəhbərlərin təsdiqi məsələsi barədə Rezidentura və magistratura şöbəsinin müdir müavini Ə.Məmmədovanın çıxışı qənaətbəxş hesab edilsin.

II. Kafedra müdirlərinə tapşırılsın ki:
1. Kafedralarda Təhsil keyfiyyətinin menecmenti (idarəetmə) Komissiyasının fəaliyyətinə şərait yaradılsın (bu məsələ ilə bağlı yaranmış suallar **aygun.babayeva@amu.edu.az** ünvanına göndərilsin);
2. Kafedraların fəaliyyətini əks etdirən sənədlərin vaxtında və düzgün tərtib olunmasına nəzarət gücləndirilsin;
3. Kafedranın ayrı-ayrı fənlər üzrə ekspert müəllimlərinin (apelyasiya müraciətlərinə görə cavabdehlik daşıyan) siyahısı dekanlığa təqdim edilsin;
4. Növbəti dərs ilində ingilis dilində tədris nəzərdə tutulan kafedralarda ingilis dilində tədris proqramlarının, dərs vəsaitlərinin, dərsliklərin hazırlanması və kadr hazırlığı məsələsinə diqqət gücləndirilsin.

III. Dekanlığa tapşırılsın ki, fakültənin iş fəaliyyətinin yaxşılaşdırılması, tədrisin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi üçün təşkilati funksiyaları, eləcə də nəzərdə tutulan işlərin yerinə yetirilməsinə nəzarəti gücləndirsin.

Sədr: prof. A.Ə.Ağayev

Elmi katib: dos. Y.H.Hacıyeva